## Eldar Məmmədbəyli - 80

# Alimin və mütəfəkkirin ömrünün səhifələri

**Tanınmış kimyaçı alim və mütəfəkkir Eldar Məmmədbəylinin 80 illik yubileyi ərəfəsində "Eldar Məmmədbəyli-80, Alimin və mütəfəkkirin ömrünün səhifələri" kitabı işıq üzü görüb. Nəfis şəkildə tərtib olunmuş 4 fəsildən ibarət 390 səhifəlik bu kitabın birinci fəslində Yubliyarın doğulub böyüdüyü məkan, soy-kökü və ailəsi haqqında yazılar, ikinci fəslində həyatı, elmi, pedaqoji fəaliyyəti haqqında alimlərin, ziyalıların və digər mütəxəssislərin yazıları, üçüncü fəslində Professor Eldar Məmmədbəylinin publisist və bədii əsərləri, dördüncü fəslində isə elmi əsərlərinin biblioqrafiyası, elmi rəhbərlik, təltiflər, rəylər, zəmanətlər, fotoşəkillər yer almışdır.**




Kitabın ön söz müəllifi Azərbaycan Milli Elmlər Akademiyasının Neft-Kimya Prosesləri İnstitutunun direktoru akademik Vaqif Abbasov yubliyarın elmdəki şərəfli və nüfuzlu ömür yoluna qısa nəzər salmaqla yanaşı, ölkəmiz üçün aliımın etdikləri böyük işləri sadalayır və bu işlərin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini və professor Eldar Məmmədbəylinin Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənablarının 1452 saylı 1 oktyabr 2019-cu il tarıxli sərəncamı ilə "Tərəqqi" medalına layiq görüldüyünü qeyd edir.

Kitabın redaktoru, Azərbaycan Milli Elmlər Akademiyasının ilk Fəxri Fəlsəfə Doktoru, yazıçı-filosof Əlisa Nicat isə kitaba yazdığı müqəddimədə alimin elmindən çox onun helmini önə çəkərək yubliyarın bir filosof və mütəfəkkir kimi qiymətini verir və ona həsr olunan yazıların qısa anonsunu təqdim edir. Əlisa Nicat öz yazısında Eldar Məmmədbəylinin ən başlıca xüsusiyyətini aşağıdakı şəkildə oxuculara çatdırır: "Bu adam istəsəyidi, böyük mövqe sahibi ola bilərdi, amma istəməyib və qeyd edim ki, bu onu çox azların gözündə görünməmiş yüksəkliyə qaldırıb. Eldar müəllim müdirik bir insan kimi, hər şeyin mahiyyətcə necə eyni, ötəri və nisbi olduğunu yaxşı bilir".

Kitabın birinci fəslində yubliyarın doğulub böyüdüyü məkan, soy-kökü və ailəsi haqqında ətraflı məlumat verilir. Bu yazılarda, böyüyüb boya-başa çatdığı mühitin ecazkarlığının, həmçinin soy kökünün və geninin təmizliyinin Eldar Məmmədbəylinin bir alim və mütəfəkkir kimi yetişməsində necə rol oynadığını duyursan. Fəsildə yer almış, yubliyarın özü tərəfində qələmə alınan və bədii çalarlığı ilə seçilən "Aydan arı, sudan duru Arısuyum", " Arısuyum və soyum", "Arısuyum, ana soyum" məqalələri olduqca maraqlı və oxunaqlıdır.

İkinci fəsildə yubliyarın həyatı, elmi, pedaqoji fəaliyyəti haqqında tanınmış alimlərin, ziyalıların və digər mütəxəssislərin yaz ,rı yer alır. Bu yazıların hər biri öz əmimiliyi ilə seçilir və yubliyarı müxtəlif rakuslardan oxuculara tanıdı Sərdar Cəlaloğlu yubliyara həsr etdiyi "Alim məsuliyyəti" məqaləsində Eldar Məmmədbəylini oxuculara Azərbaycanın ğörkəmli xadimləri ilə bir sırada təqdim edir: "İnsanların siyasi aktivliyi bir çox hallarda onların bioloji aktivliyindən, yəni yaşından asılı olur. Amma elə insanlar da vardır ki, onlar siyasi aktivliklərini bioloji əsasdan qoparıb, intellektual əsasa qoya bilmişdilər. Belə insanlra Xudu Məmmədov, Dilarə Əliyeva, Aydın Məmmədov, Ziya Bünyadov, Cəmil Əhmədli, Rafiq Əlyevlə bir sırada olan, həm də mənim yaxından tanıdığım və böyük rəğbət bəslədiyim kimya elmləri doktoru, professor Eldar Məmmədbəyli aiddir".

Alimin elmi əməkdaşlıq sferasına daxıl olan tanınmış kimyacı alimlər, kimya elmləri doktoru, professor, akademik Əjdər Məcidov, akademik Akif Əzizov, AMEA-nın Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun direktor müavini, kimya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Məhəmməd Babanlı, AMEA Polimer Materialları İnstitutunun direktoru, kimya elmləri doktoru, professor Bəxtiyar Məmmədov, kimya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Hafiz Əlimərdanov, kimya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Eldar Zeynalov, kimya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Ziyafəddin Əsədov, kimya elmləri doktoru, professor, Əməkdar elm xadimi Musa Bayramov və digər tanınmış kimyaçı alımlər yubliyara həsr olunmuş məqalələrində onun elmi nailiyyətlərini göz önünə gətirir, Eldar Məmmədbəylinin kimyaçı alım kimi elmi uğurlarından söhbət açırlar.

Professor Əjdər Məcidov öz məqaləsində EldarMəmmədbəylinin elmi fəaliyyətini ətrafli şərh edərək qeyd edir ki, "Eldar Məmmədbəylinin apardığı işlər dünyada asimmetrik sintez sahəsində tanınmış nüfuzlu alimlər: K. Naraska, H.B. Kaqan və K.Koqa tərəfindən qəbul edilmiş və bu işlərə yüksək qiymət verilmişdir. E.-Məmmədbəyli üzvi kimya sahəsində, xüsusən zərif üzvi sintez sahəsində tanınmış alimdir. Onun tədqiqat işlərinin nəticələri 480-dən çox elmi əsərdə öz əksini tapmışdır".

Akademik Akif Əzizov yubliyara həsr etdiyi məqaləsində Eldar Məmmədbəylinin elmi maraq dairəsinin olduqca geniş və rəngarəng olduğunu və dünya alimləri tərəfindən onun elmi fəaliyyətinə yüksək qiymət verildiyini diqqət önünə çəkir: " E.H. Məmmədbəylinin elmi maraq dairəsi olduqca geniş və rəngarəngdir: Dils-Alder reaksiyası, asimmetrik sintez, optiki aktiv funksional əvəzolunmaz alitsiklik birləşmələr, fizioloji aktiv maddələr, azot və kükürd tərkibli birləşmələrin Mannix reaksiyası ilə sintezi, Azərbaycan neftlərinin, o cümlədən Naftalan neftinin optiki aktivliyinin tədqiqi və s. Son 5 ildə E.H.Məmmədbəylinin Rusiya EA-nın nüfuzlu jurnallarında 30 məqaləsi dərc olunmuşdur. O, bir çox beynəlxalq simpoziumların və konfransların iştirakçısıdır. Üzvi kimya elminin müasir variantlarından biri olan asimmetrik sintez sahəsində, xüsusən xiral katalizatorların iştırakı ilə asimmetrik reaksiyalar üzrə çalışan dünyanın bir çox görkəmli alimləri: yaponiyalı K. Koqa, amerikalı alimlər Q. B. Kaqan (kimya üzrə Nobel mükafatı laureatı) və S.H.Rent, fransalı O. Riant, macarıstanlı N.Noqradi E.H.Məmmədbəylinin öz müəllimləri ilə birgə apardığı elmi işləri yüksək qiymətləndirmiş, onun bu sahədə pionerlərdən biri olduğunu qəbul etmiş və öz əsərlərində istinad kimi göstərmişlər".

Professor Məhəmməd Babanlı öz məqaləsində alimin elmi nailiyyətlərini şərh edərək qeyd edir ki, professor E.Məmmədbəyli Respublikamızda asimmetrik sintez sahəsində sistemli şəkildə çalışan ilk azərbaycanlı alimdir. Onun REA EÜBİ-nin nəzdindəki ixtisaslaşmış Şurada müdafiə etdiyi namizədlik dissertasiyası və BDU-nun nəzdindəki Dissertasiya Şurasında müdafiə etdiyi doktorluq dissertasiyası bütövlükdə asimmetrik sintez problemlərinə həsr olunmuşdur. REA-nın görkəmli kimyaçı alimləri: "Jurnal Orqaniçeskoy Ximii" jurnalının baş redaktoru, MDU-nun professoru, akademik İ. P. Beletskaya, uzun müddət EÜBİ-nin direktoru işləmiş akademik Y.N.Bubnov, KFİ-nin laboratoriya müdiri, professor R.Q. Kostyanovski və başqaları Eldar müəllimin işlərinə yüksək qiymət vermişlər. Professor Məhəmməd Babanlı alimin elmi nailiyyətləri ilə yanaşı onun insani keyfiyyətlərindən də söhbət açir: "Bu yazıda mən Eldar müəllimi bir tədqiqatçı alım kimi təqdim etməyə çalışdım. Sonda onun bir insan kimi şəxsi keyfiyyətlərini də qeyd etməyi özümə borc bilirəm. O, olduqca sadə və təvazökar bir insandır, insanlarla asanlıqla ünsiyyət qura bilir. Bununla yanaşı, o, sözünü açıq deyə bilən xarakterlı bir insandır. Vətənini, millətini, müstəqil dövlətimizi çox sevir, torpağa, el-obaya ürəkdən bağlıdır. Elə bu səbəbdən poeziyanı, aşıq sənətını, sazı-sözü çox sevir. Onun bir çox məclislərdə qəlbəyatan çıxışları, əzbərdən dediyi sözlər xoş qarşılanır. Dostların, tanışların tədbirlərində yaxından iştirak edir, çox maraqlı həmsöhbət və yaxşı yol yoldaşıdır. Gözü, könlü tox adamdır".

Professor Eldar Zeynalov isə öz məqaləsində alimin publisistik istedadını ön plana çəkərək yazır ki, Eldarın xüsusi publisistik istedadını qeyd etməsəyidim, onun həyatı və elmi profili tamamlanmamış olardı. O, bir sıra məşhur elmi-populyar jurnallarda çap olunmuş məqalələrin müəllifidir. Yazdığı məqalələrdən onun savadlı, analitik təfəkkürə malik və müdrik bir alım kimi yetişdiyi aydın görünür".

Eldar Məmmədbəylinin calışdığı kollektivin üzvü, texnika elmləri doktoru, dosent Təranə Məmmədova isə alimin kollektivdəki nüfuz və hormətindən, həmcinin tabeciliyində olanlara münasibətindən ürəkdolusu söhbət acir: "Eldar müəllim öz bilik və bacarığını, bir alim kimi topladığı təcrübəni gənclərə, tələbələrinə ötürməklə onlara yaxından kömək edir. Onun rəhbərliyi ilə 6 nəfər fəlsəfə doktoru, 3 nəfər elmlər doktoru yetişmişdir. Hazırda 7 nəfər onun rəhbərliyi ilə dissertasiya işi üzərində işləyir. Eldar müəllim işlədiyi Neft-Kimya Prosesləri İnstitutunun əməkdaşları arasında nüfuz və hörmət qazanmışdır. O, institutun ictimai həyatında fəal iştirak edən, sayılmış, seçilmiş alimlərdən biridir".

Alimin tələbə yoldaşı olmuş tibb elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Yaqub Məmmədov yubliyara həsr etdiyi "Şərəfli ömür yolu" məqaləsində Eldar müəllimin tələbəlik vaxtından bu günədək xarakterinin mühüm cəhətlərini səciyyələndirir və onu oxuculara vətəndaş mövqeyindən təqdim edir: Mən Eldar müəllimin Azərbaycanın milli azadlıq hərəkatında və müstəqillik uğrunda mübarizədə fəal vətəndaş mövqeyindən iştirak etdiyini xüsusi qeyd etmək istəyirəm. O, Azərbaycanın müstəqilliyinin onun üçün hər şeydən üstün olduğunu həmişə qeyd edir. Müstəqilliyimizə qarşı olan hər bir hərəkətə qarşı sərt mövqedən çıxış edir. Millətinə, vətəninə, doğma yurduna, elinə-obasına ürəkdən bağlı bir insandır, mərddir, sözü açıq üzə deyəndir".

Kimya elmləri doktoru Füzuli Nəsirovun məqaləsində Eldar Məmmədbəylinin xarakterini açan aşağıdakı ifadələr yer alır: "Övlad meyvədir, ata bağban". Xeyirxahlıq - lalların danışa bildiyi və karların eşidə bildiyi dildir". "Təmiz vicdan qədər yumşaq yastıq yoxdur". "İnsanlar yaşadığı üçün deyil, yaşamadığı üçün qocalırlar".

Psixologiya elmləri doktoru, professor, əməkdar müəllim Ramiz Əliyev "Mənim tanıdığım yubliyar- - Eldar Məmmədbəyli" məqaləsində böyük ustalıqla alimin psixoloı portretini yaradır: "Elə insanlar var ki, onların haqqına yazmaq və ya danışmaq çox asandır. Çünki onun həyatı, kimliyini beş-altı sözlə ifadə etmək olar... Elələri də var ki, məşhurdurlar, daim göz qabağındadırlar, insanların onlara bir qəribə sevgisi də var. Sözdə hamının dərdinə şərikdirlər, xeyirxahdılar və s. Bir sözlə, "tozanaq qoparırlar". Lakin lazımi anda aradan çıxır, yalan danışır və s.

İnsanların başqa bir tipi də var, Bu insanlar adətən düz danışan, yüksək intelektual səviyyəyə malik olurlar. Onlar bütöv şəxsiyyətdir. Bu tip insanlar, adətən, qəbul etdikləri həqiqətdən üz çevirmirlər. Onlar üçün başlıca olanı həqiqətdir, düzlükdür. Heç bir halda, heç bir situasiyada, heç kəsin qarşısında həqiqətdən dönmürlər. Yəni öz mənafeyini düşünərək haqqı nahaqqa vermirlər. Elə bu səbəbdən də onlar xarakteri ağır, münasibətlərində kəskin olurlar. Belələri haqqında, adətən, deyirlər: "mürəkkəb adamdır" Qəribədir ki, bu insanlara hörmət edir, ondan çəkinirlər, lakin bir çox hallarda ondan uzaqda dolaşırlar. Məşhur psixoloq Perelzin bir sözü var: "İnsan başqalarına bənzəmək istəməyəndə, öz təbiəti, mahiyyəti, iç dünyası necədirsə, elə olduqda şəxsiyyət olur. Başqasına bənzəyən insan özünü itirir".

Eldar Məmmədbəyli də belə şəxsiyyətdir. Bütövdür, dəyişməzdir, öz həqiqətləri, öz prinsipləri var. Belə adamlar sözün əsl mənasında "BÖYÜK ŞƏXSİYYƏTDİRLƏR" Ümumiləşdirib belə demək olar: "ELDAR MƏMMƏDBƏYLİ BÖYÜK ŞƏXSİYYƏTDİR".

Rusiyalı alım, kimya elmləri doktoru, professor Konstantin Koçetkovun kitabda yer aldığı geniş və əhatəli məqaləsi də ( məqalə rus dilindədir) olduqca maraqlıdır və əcnəbi alimlərin Eldar Məmmədbəyli elminə verdiyi yüksək qiymətin bir nümunəsidir.

Bu fəsildə Eldar müəllim haqqında, onun insanlığı, dostluğu, sözü düz üzə deməyi barədə digər müxtəlif peşə sahiblərinin, ziyalıların, yazarların kifayət qədər rəyləri var və onları oxuduqca adamın ürəyi dağa dönür.

Kitabın Üçüncü fəslində Professor Eldar Məmmədbəylinin müxtəlif vaxtlarda müxtəlif mətbu orqanlarda çap olunmuş publisistik və bədii əsərləri yer almışdır. Bu əsərlər də olduqca oxunaqlıdır və oxucunu düşünməyə vadar edir. "Bəşəriyyəti yaşadan 7 saylı element", "Norilsk əhvalatıları" , "Kədərlə dolu bir ilk məhəbbət " kimi yazıları Eldar Məmmədbəylini elm aləmi ilə yanaşı publisistik aləmdə də tanıdır.

Sonuncu, dördüncü fəsildə isə yubliyarın elmi əsərlərinin biblioqrafiyası, elmi rəhbərlik, təltiflər, rəylər, zəmanətlər, fotoşəkillər yer almışdır. Bütün bunlara nəzər saldıqca alimin necə bir keşməkeşli həyat yolu keçdiyinin bir daha şahidi olursan. Bu fəslidə yer alan şəkillərdən Eldar Məmmədbəylinin İran İslam Respublikasından azərbaycanlı tələbəsi Nəsimi Milani ilə və Göyçə gölünün önündə çəkdirdiyi şəkillərin Azərbaycanımızın bütövlüyünə bir işarə olduğunu düşünərək həmin şəkilləri də qəzetimizdə dərc edirik və Eldar müəllimin 100 illik yubileyinin Bütöv Azərbaycan çərçivəsində qeyd olunmasını hər şeyə qadir o tək Allahdan arzu edirik.

Sonda yubliyarı bir daha 80 illik yubileyi və nəfis şəkildə tərtib olunmuş kitabının işıq üzü görməsi münasibəti ilə ürəkdən təbrik edir, ona uzun ömür, can sağlığı arzulayırıq.

**Elman Rüstəmov**
***Yazıçı-publisist, tibb xidməti polkovnik- leytenantı***